**Azərbaycan Tibb Universiteti**
**İstehsalatda Dövlət Sanitariya Nəzarəti**

**"TƏSDİQ EDİRƏM**
**"Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı"** kafedrasının müdiri:

dos. Ş.M.Balayeva

İmza ________________

Fənni üzrə

İŞÇİ TƏDRİS PROQRAMI

(SİLLABUS)

| | |
|---|---|
| **FƏNNİN KODU:** | İPF–B50 |
| **FƏNNİN NÖVÜ:** | məcburi |
| **FƏNNİN TƏDRİS SEMESTRİ:** | VI kurs – XII semestr |
| **FƏNNİN KREDİTİ:** | 4 kredit |
| **FƏNNİN TƏDRİS FORMASI:** | əyani |
| **FƏNNİN TƏDRİS DİLİ:** | azərbaycan, rus |
| **FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİMLƏR:** | t.ü.f.d., dos. M.Y.Nəbiyeva<br>t.ü.f.d., dos. Ş.M.Balayeva<br>t.ü.f.d., dos. S.A.Gürzəliyev<br>t.ü.f.d., dos. C.Y.Salihova<br>baş müəllim İ.İ.Mustafayeva |
| **KAFEDRANIN ƏLAQƏ NÖMRƏSİ:** | **012 595-30-14** |
| **E.mail:** | **department_cahoh@amu.edu.az** |

**PREREKVİZİTLƏR:**

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn**:** Xüsusi istehsalat sahələrində əmək gigiyenası

**KOREKVİZİTLƏR:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

**KURSUN TƏSVİRİ:**

Bu fənn əmək gigiyenası sahəsində Dövlət sanitar-epidemioloji nəzarətin həyata keçirilməsinin hüquqi əsaslarını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyasına söykənən bir sıra əsas qanunverici sənədləri və ölkədə ratifikasiya olunmuş BƏT-ı konvensiyalarını öyrənməklə məşğul olur.

**KURSUN MƏQSƏDİ:**

Fənnin əsas məqsədi: əmək gigiyenası sahəsində tez-tez tədbiq olunan qanunları bilməklə sanitar-epidemioloji nəzarəti həyata keçirilməsi.

**KURSUN NƏTİCƏLƏRİ:**

Fənnin mənimsənilməsi nəticəsində tələbələr bu mövzulara aid istehlakçıların və insanların hüquqlarının təmin olunması üzrə nəzarət işini təşkil etməyi bacarmalıdırlar.

**FƏNNİN MÜHAZİRƏ MÖVZULARI:**

| № | **Mövzuların adı** | Saatların miqdarı |
|---|---|---|
| 1. | Əmək gigiyenası həkiminin gigiyena-epidemiologiya mərkəzində təşkilatı və metodik işi, xəbərdaredici və cari sanitariya nəzarəti. İstehsalat müəssisələrinin tikintisi və rekonstruksiyası zamanı nəzarət, inzibati, köməkçi, məişət otaqlar layihəsinin ekspertizası. **Predmet:** *Əmək gigiyenası sahəsində sanitar-epidemioloji nəzarətin həyata keçirilməsi üzrə əmək gigiyenası həkim mütəxəssisin işinin əsas məzmunu təşkili və həkimin hüquq və vəzifələrinin öyrənilməsi. İşçilərin sağlamlıq vəziyyətinin – demoqrafik göstəricilər və fiziki inkişaf (ölüm, doğum və ölü doğuş göstəricilərinin öyrənilməsi) qabaqcadan və dövri tibbi müayinələrin aparılmasında əmək gigiyenası həkiminin rolu.* | 2 |
| 2. | Əmək gigiyenası sahəsində əsas qanunverici və normativ sənədlər. Əmək gigiyenası həkiminin işinin hüququ aspektləri. Tibbi əmək mərkəzləri, Beynəlxalq əmək təşkilatları. **Predmet:** *Əmək gigiyenası sahəsində sanitar-epidedmioloji nəzarətin həyata keçirilməsində istifadə olunan əsas qanunverici və normativ sənədləri öyrənilməsi. - "Sanitar – epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının qanunu (Bakı 1992); "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu (Bakı 1997); "Azərbaycan Respublikasının Əmək məcəlləsi" (Bakı 1999); "Əhalinin sığortalanması haqqında" Azərbaycan Respublikasının prezidentinin fərmanı; Həkimin hüquq və vəzifələri və s.* | 2 |
| 3. | İstehsalat şəraitində zərərli amillərdən qorunmaq üçün fərdi mühafizə vasitələri. **Predmet:** *Fərdi mühafizə vasitələrinin təyinatından asılı olaraq təsnifatı,* | 2 |

| | | |
|---|---|---|
| | *mühafizə olunacaq amildən asılı olaraq xüsusi geyimlər və onlara olan tələblər.Təcridedici kostyumlar və skafandrlar. Tənəffüs üzvlərini qoruyan süzücü vasitələr və əleyhiqazlar. Göz və üzün fərdi mühafizə vasitələri (müxtəlif eynəklər və maskalar). Eşitmə üzvünü (antifollar), başı mühafizə edən (dəbilğələr), xüsusi ayaqqabılar və s.* | |
| 4. | Orqanizmin reproduktiv sağlamlığı, qadın və yeniyetmə əməyinin mühafizəsi.<br>**Predmet:** *Reproduktiv sağlamlığın pozulmasına gətirə bilən əmək şəraitləri, orqanizmin reproduktiv sağlamlığının pozulmasında spesifik meyarlar, rast hallar və amillər. Zərərli istehsalatlar, kimyəvi maddələr və orqanizmdə pozğunluq formaları. Reproduktiv sağlamlıqlarının pozulmasının profilaktikası, tibbi və müalicə-profilaktik xarakterli tədbirlər. Qadın və yeniyetmələrin fəaliyyətinin gigiyenik cəhətdən səmərəli təşkili; istehsalatda təlim – tədris amillərinin adaptasiya prosesi və peşə təliminin qiymətləndirilməsi. Yeniyetmələrin əmək təlimi və əməyin təşkilinin gigiyenik normalaşdırma prinsipləri; işə götürülərkən təlimatlarla əmək mühafizəsi qaydaları ilə təhlükəsizlik texnikası və saneyi sanitariya qaydaları ilə tanışlıq.* | 2 |
| 5. | Esktremal şəraitdə əmək gigiyenası<br>**Predmet:** *Ekstremal amillər, insanların ümumi vəziyyətinə, işgörmə qabiliyyətinə təsiri. Ekstremal şərait. Amillərin bəzi fərdlər üçün adi və digərləri üçün ekstremal olması. Adaptasiyanın ekstremallığa təsiri. Ekstremal amillərin təsnifatı. Onların siniflərə, yarımsiniflərə və dərəcələrə bölünməsi. Stres hadisəsinin ekstremal hal kimi qiymətləndirilməsi. Lizarus fərziyyəsi. Həyacan-qorxu və qorxu təlaş formalı cavab reaksiyaları. Şaxtaçıların əməyinin ekstremallığı. Ekstremal hallarda ətraf mühitin zərərsizləşdirilməsi və təmizlənməsi. Kosmosda əmək şəraiti, ekstremal faktorların kosmonavtların orqanizmə təsiri. Uçuş zamanı adaptasiyanın mərhələləri.* | 2 |

**Cəmi:10 saat**

## FƏNN ÜZRƏ PRAKTİK MƏŞĞƏLƏ MÖVZULARI:

| **№** | **Mövzuların adı** | Saatların miqdarı |
|---|---|---|
| 1. | GEM-də qanunverici sənədlərlə, aktlarla və protokol nümunələri ilə tanışlıq (GEM)<br>**Predmet:** *Əmək gigiyena sı üzrə Sanitar Epidemioloji Nəzarətin öyrənilməsi. Əsas qanunverici və normativ sənədlər əmək gigiyenası sahəsində sanitar-epidemiloji nəzarətin hüququ əsasları azərbaycan Respublikası Konstitusiyası və Beynəlxalq əmək təşkilatları sənədləri ilə tanışlıq. "Sanitar Epidemioloji nəzarətin məzmunu və funksiyaları" Nəzarət* | 6 |

| | | |
|---|---|---|
| | *üzrə normativ-metodik sanitariya qaydaları, sanitariya normaları, gigiyenik normativlər, San.Q və N; metodik göstərişlər (MG), metodik tövsiyələr (MT) və s. haqqında məlumatın verilməsi.* | |
| 2. | Müəssisənin sanitar xarakteristikası və aktın tərtibi (Sərbəst iş)<br>**Predmet:** *Müəssisənin və sexi sanitar müayinəsinin aprılmasının gigiyenik cəhətdən qiymətləndirilməsi. Ümumi qayda üzrə müəssisənin adı, tabe olduğu nazirlik, baş idarə və s. qeyd edilir. İstehsal olunan əsas məhsulların adı zavodun və ya müəssisənin sahəsi, si təchizatı, relyefi və s. qeyd edilir. Sexlərin sayı: adları, əmək şəraiti, iş rejimi, işçilərin sayı, iş növbəsi, cins tərkibi, yeniyetmələr, iş növbəsi müddəti, fasilələrin verilmə vaxtı, nahar fasiləsi və s. Sexlər üzrə ümumi müəssisənin müayinəsində olduğu kimi adı, buraxılan məhsul, əmək şəraiti, iş rejimi və s. qeyd edilməlidir.* | 6 |
| 3. | Attestasiya sənədlərilə tanışlıq (GEM)<br>**Predmet:** *İş yerlərinin attestasiyasının aparılması qaydalarının öyrənilməsi. İş yerlərinin attestasiyasının aparılması zamanı əmək şəraititnin gigiyenik qiymətləndirilməsi, travma təhlükəsizliyinin qiymətləndirilməsi. İşçilərin fərdi mühafizə vasitələri ilə təmini. İş yerlərin attestasiyasının aparılması zamanı əmək şəraiti üzrə normativ bazalar: Azərbaycan Respublikasının əmək məcəlləsi; Normativ aktlar; Əməyin mühfizəsi üzrə sənədlər sistemi.*<br>*İş yerlələrinin əmək şəraiti üzrə attestasiyasının keçirilməlsinə hazırlıq işlərinin həyata keçirilməsi; işçilərin FMV ilə təmin edilməsinin qiymətləndirilməsi. İş yerlərində faktiki əmək şəraitinin qiymətləndirilməsi. Attestasiyanın nəticələrinin tərtibi.* | 6 |
| 4. | Mebel istehsalı müəssisəsində əmək şəraitinin gigiyenik qiymətləndirilməsi (Sərbəst iş)<br>**Predmet:** *Mebel istehsalında istehsalat mikroiqlimi parametrlərinin sanitariya qaydaları və normalarına uyğun olaraq qiymətləndirilməsi. “İstehsalat otaqlarında mikroiqlimə olan gigiyenik tələblər (SanQ və N2.2.4548-96)” Mebel üzrə istehsalat otaqlarındakı iş yerlərində mikroiqlimin optimal və yolverilən parametrlərinin, yerinə yetirilən işlərin ağırlığı, ilin fəsilləri nəzərə alınmaqla ölçülməsi və qiymətləndirilmə üsullarının öyrənilməsi. İstehsalat otaqlarında mikroiqlimə nəzarət məqsədilə ilə havanın, qoruyucu konstruksiyaların və texnoloji qurğuların səthlərində və işçi havası zonasında temperaturun, rütubətin, hava cərəyanın sürətinin ölçülməsi və mikroiqlim parametrlərinin gigiyenik cəhətdən qiymətləndirilməsi.* | 6 |
| 5. | Müəssisədə əmək şəraitinin gigiyenik qiymətləndirilməsi (Sərbəst iş)<br>**Predmet:** *“İşıq mühiti” faktoruna görə əmək şəraitinin qiymətləndirilməsi. Ölçmə nəticələrinə əsasən əmək şəraiti sinfinin, hər bir göstəriciyə görə, cədvəl üzrə: təbii işıqlanma, təbii işıq əmsalı, süni işıqlanma, korluq hissiyyatı, pulsasiya əmsalı, əks olunan parlaqlığın olmasının təyini. İş yerlərində işıqlanmanın gigiyenik cəhətdən qiymətləndirilməsi. İş yerlərində səs-küyün səviyyəsinin ölçülməsi və onun norma göstəriiclәri ilə müqayisə* | 6 |

| | | |
|---|---|---|
| | *edilməklə, ölçmə nəticələrinin protokol forması üzrə tərtib olunması. Daimi küylərin orta səviyyəsinin, səs təzyiqi üzrə orta oktava səviyyəsinin, daimi olmayan küylərin ekvavalent səviyyəsinin təyini. Ölçülmüş nəticələr üçün səsin orta qiymətinin təyin edilməsi qaydasının öyrənilməsi.* | |
| 6. | Azərbaycan Respublikası Dövlət Sanitariya nəzarəti, əmək gigiyenası həkiminin işinin hüququ aspektləri. Xəbərdaredici və cari sanitariya nəzarəti (Kafedra)<br>**Predmet:** *Əmək gigiyenası üzrə Dövlət sanitariya Nəzarətinin həyata keçirilməsinin hüquqi aspektləri, əmək gigiyenası həkiminin hüquq və vəzifələrinin tələbələrə öyrədilməsi. Xəbərdaredici və cari sanitariya nəzarətinin həyata keçirilməsi qaydaları. Sanitar-epidemioloji cəhətdən nəzarət olunan obyektlər: - istehsalat binaları və texnoloji proseslər; FMV; sanitar məişət otaqları;su təchizatı və kanalizasiya; qızdırıcı sistem və ventilyasiya, istehsalat işıqlanması; tədarük edilən xammal və alınan məhsullar; onların saxlanma şəraiti və s. Göstərilən nəzarətəaid olan məsələlər: məhsul və xammalların laborator müayinələri, sınaqlar və ölçmələrin aparılması, daşınması və onların yaşayış məntəqələrinə təsirinin müəyyənləşdirilməsi. Ekspertizanın aparılması məqsədi və vəzifələri.* | 5 |
| 7. | İstehsalat şəraitində zərərli amillərdən qorunmaq üçün fərdi mühafizə vasitələri (Kafedra)<br>**Predmet:** *Xüsusi geyimləri, təcridedici kostyumları, tənəffüs üzvlərini qoruyan resperatorların, əleyhiqazların, göz və üzü mühafizə üçün eynəklərin və maskaların, eşitmə üzvlərini mühafizə edən antifolların, başı mühafizə edən dəbilqələrin, ayağı qorumaq üçün xüsusi ayaqqabıların, əllərin mühafizəsi üçün müxtəlif əlcəklərin, dəri örtüyü mühafizəsi üçün masta, maz və məlhəmləri, qoruyucu kəmərlərin istifadə qaydası və gigiyenik qiymətləndirilməsi* | 4 |
| 8. | Fabrikdə əmək şəraitinin gigiyenik qiymətləndirilməsi (Sərbəst iş)<br>**Predmet:** *Tikiş məmulatları istehsalında istehsalat binaları və otaqlarına, avadanlıqlara və materiallara, işçi yerlərinin təşkilinə dair erqonomik tələblər və təkliflərlə tanışlıq. Əmək və istirahət rejiminin təşkilinə, mikroiqlimə, səs-küy və vibrasiyaya qarşı mübarizəyə, otaqların qızdırılması və ventilyasiyasına, işıqlanmaya və s. aid gigiyenik tələblər və təkliflərlə tanışlıq. Fərdi mühafizə vasitələrindən düzgün istifadənin qiymətləndirilməsi.* | 6 |
| 9. | Ekstremal hallarda sağlamlaşdırıcı tədbirlər və ətraf mühitin zərərsizləşdirilməsi və sanitar təmizlənməsi.<br>**Predmet:** *Müasir dövrdə ekstremal amillər və onların xarakteri. Ekstremal şəraitdə orqanizmin fizioloji reaksiyalarının pozulması. Ekstremal amillərin təsnifatı (fiziki-kimyəvi, qeyri-adi, informasiyalı, semantik və daxili) onların fizioloji və gigiyenik qiymətləndirilməsi. İnsanın həyacan-qorxu və ya qorxu-təlaş formalı cavab reaksiyaları. Stres hadisəsi ekstremal hal kimi. Ekstremal əmək şəraiti (şaxtaçılar, alpinistlər, mina axtaranlar – anamanın işçiləri və s.). Ekstremal hallarda sağlamlaşdırıcı tədbirlər. Ekstremal* | 5 |

| | | |
|---|---|---|
| | *şəraitdə ətraf mühitin zərərsizləşdirilməsi: dezaktivasiya – ionlaşdırıcı şüalardan, deqazasiya – kimyəvi maddələrdən, dezinfeksiya – xəstəlik törədicilərdən orqanizmin qorunması.* | |

**Cəmi:50 saat**

Fənnin bütün mövzuları üzrə nümunəvi testlər elektron variantda hazırlanır və Universitetinin rəsmi www. amu.edu.az saytında yerləşdirilir.

## QİYMƏTLƏNDİRMƏ:

Fənn üzrə kredit üçün lazımi olan 100 balın toplaqnması aşağıdakı kimi olacaq:

50 bal-imtahana qədər
O cümlədən:
10 bal- dərsə davamiyyət
10 bal- sərbəst iş
10 bal - bacarıqlar
20 bal- seminar dərslərindən nəzəri biliklərdən toplanacaq ballardır.
50 bal- imtahanda toplanılacaq.

Imtahan test üsulu ilə keçiriləcəkdir, tələbələrə 50 test verilir. Sualdan ibarət olacaqdır. Hər bir test bir balla qiymətləndirilir. Səhv cavablanan test düzgün cavablardan yığılan ballardan silir.

## QEYD:

Imtahanda minimum 17 bal toplanmasa, imtaha qədər yığılan ballar imtahan balı ilə toplanılmayacaq. Imtahanda 17 və yuxarı bal, imtahana qədər toplanan ballarla cəmlənir və yekun nəticə aşağıdakı kimi qiymətləndirilir:

A - "Əla" -91-100
B - "Çox yaxşı" -81-90
C - "Yaxşı" -71-80
D - "Kafi" -61-70
E - "Qənaətbəxş" -51-60
F - "Qeyri kafi" -51 baldan aşağı

## SƏRBƏST İŞ:

Semestr ərzində 10 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi bir balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, word faylı formasında, həcmi 1-2 səhifə (şrift 12) olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğu görə plaqiat yol verilməzdir.

**SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ**

| №-si | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Əmək gigiyenası sahəsində əsas qanunverici və normativ sənədlər. | 4-cü həftə |
| 2 | Əmək gigiyenası həkiminin işinin hüququ aspektləri. Tibbi əmək mərkəzləri, Beynəlxalq əmək təşkilatları. | 5-ci həftə |
| 3 | Xəbərdaredici və cari sanitariya nəzarəti. | 6-cı həftə |
| 4 | İstehsalat müəssisələrinin tikintisi və rekonstruksiyası zamanı nəzarət, inzibati, köməkçi, məişət otaqlar layihəsinin ekspertizası. | 7-ci həftə |
| 5 | Orqanizmin reproduktiv sağlamlığı. | 8-ci həftə |
| 6 | Yeniyetmə əməyinin mühafizəsi. | 9-cu həftə |
| 7 | Ventilyasiya qurğularının seçilməsinə, yerləşdirilməsinə, effektliyinə olan gigiyenik tələblər və onların ekspertizası. | 10-cu həftə |
| 8 | İşıqlanma qurğularının seçilməsinə, yerləşdirilməsinə, effektliyinə olan gigiyenik tələblər və onların ekspertizası. | 11-ci həftə |
| 9 | İlkin və dövri tibbi müayinələrin aparılmasında Azərbaycan Respublikası və Səhiyyə Nazirliyinin 13 saylı əmri (23.01.98-ci il). | 12-ci həftə |
| 10 | İstehsalat şəraitində zərərli amillərdən qorunmaq üçün fərdi mühafizə vasitələri. | 13-cü həftə |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

**KURS İŞİ:**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ:**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulur.

**Hazırladı:** **dos. M.Y.Nəbiyeva**

**Metodiki təminat**

1. R.A.Orucov "Əmək gigiyenası" praktik məşğələ. Bakı- 1987;
2. S.A.Gürzəliyev və R.H.Əliyeva "Əmək gigiyenasından mühazirələr". Bakı- 2008;
3. S.A.Gürzəliyev və b. "Əmək gigiyenası, dərslik". Bakı- 2013;
4. Н.Ф.Измеров, В.Ф.Кириллов «Гигиена труда». М.-2008;
5. «Руководство к практический занятия по гигиене труда» Под редакцией проф. В.Ф.Кириллова. М.-2008.